# Şairlə ikinci görüşüm...

**Poeziya haqqında düşünəndə mə-nə elə gəlir bu müəmmalı hissin gəlişi qeyri - müəyyəndir, ona görə ki, İlahidən pay alır, ətə-qana dolur və bir ürəkdə qərar-laşır. Amma hər qəlbi seçmir özü üçün, o qəlbə ki, onun yeri-məkanı olsun. Müəl-lifə gələndə isə vəzifəsi, nüfuzu və mövqeyi poeziya üçün laməkandır! Necə ki, Millət vəkili, ictimai xadim şair Tahir Rzanı özü üçün həmdəm seçmiş-dir. Bu mə-nada mən şeirə belə bir qiymətvermədə yanaşıram.**

**Tahir Rza artıq poeziyada öz sözünü deyən, öz yaradıcı missiyasını ləyaqətlə təmsil edən şairdir. Necə ki, onunla poeziya - şeir cəbhəsində ikinci görüşümdür. Şairin "525-ci qəzet"-də (11 iyul, 2025) lirik şeirləri (qoşmaları) bir daha diq-qətimdə yaşadı. Bu şeirlərdəki vətənpərvərlik ruhu, yaxşı mənada pafosu şairin Və-tən sevgisi ilə çulğalaşır, o Vətən ki, "oğullarını harayladı, zamanın sınaqlarından keçirdi, analar dəfn etdi ağılarını".**

***Qələbə eşqinə hər ata, ana***
***Dözdü əzablara möhkəm dayandı.***
***Onlar torpağını basıb bağrına,***
***Oğul əvəzinə Vətən qazandı.***

Bəs şairə nə qalır? Çox deyərlər: mübariz xalq, xilaskar Rəhbər, ucalan Şöh-rət! Budur, Şairi ruhlandıran, Şeirə aşina edən:

***İnsanlığa, hörmətinə,***
***Tükənməyən sərvətinə,***
***Azərbaycan millətinə -***
***Dövlətinə qurban olum.***

Bu millət və Dövlətdir ki, şair oğluna Tahir Rzaya etimad göstərib xalq elçi-si seçmişdir!

Şeirdən şeirə şair müdrikləşir, ağsaqqallaşır və insanı duymağa, haqqı öz ye-rinə qoymağa çağırır. Bu ömrü - ixtiyarı nadana verməməyə səsləyir.

***Ömrümüz, günümüz gedəcək bada,***
***Versək ixtiyarı nadana, yada,***
***Bədbəxtik vurulsaq şöhrətə, ada***
***Haram naz-nemətdən doya bilməsək.***

***Əgər hörmət qoysan Tahir, adına,***
***Düşərsən hər zaman xalqın yadına.***
***Nadanıq dar gündə yetib dadıma,***
***Vətənçün biz cana qıya bilməsək.***

Şairlər o halda kamilləşir və müdrikləşir - Allaha yaxınlığını idrak edir, onun vəhyilə şairləşdiyinə inamı artır, onda akselerativlik - ruhi həyəcan yerini poetikaya verir, çün, şeir həqiqətə yaxınlaşmadır, təxəyyülün sistemidir, ruhun tə-mizlənməsidir, gözəlliyin mənimsənilməsidir. Şeirin predmeti İnsan və onun do-ğurduğu insanlıqdır, şair qovuşma hədəfini vahid kəsişmə nöqtəsində deyil, insanın bütövlüyündə, həyati bağlılıqda, təzahürlərdə alır. Beləliklə, Tahir Rza astadan pıçıldayır.

***Elmdən, idrakdan, eldən güc alan,***
***Amalı həqiqət, ədalət olan***
***Xalqımın başını göyə ucaldan,***
***Mərd oğul, ismətli qız istəyirəm.***

***Qəlblərdə sülh, inam böyütmək üçün***
***Səadət uğrunda yol getmək üçün***
***Tahirəm, zalımı xar etmək üçün***
***Tanrıya sözüm var, söz istəyirəm.***



Şair üçün həyat yalnız xoşbəxtlik vermir, bu həyatın ziddiyyətləri də yox deyil. Zaman şair qarşısında aciz də olur, lakin insan (şair) fasiləsiz ona nəzər ye-tirir - həm sənət, həm ideologiya baxımından, şair qəmlənməyə haqq vermə-mə-lidir, ona görə ki, şeirdə təbiətin dilini insan dilinə çevirmək mümkün olmur, necə ki, insan çalışmalıdır kişiyə əl uzatsın, onun beş barmağını sıxsın, gücünə şərik çıxsın. İnsan çalışır dünyaya verdiyini geri ala bilsin, o halda o insan özünü rahat hiss edər. O halda ki!

***İnsan köçəridi, dünya əbədi***
***Yaxşının, yamanın bəllidir yeri.***
***İnsanın dünyaya verdiyi nədir?***
***Çalışır daha çox qaytarsın geri.***

***Ən yaxın dost, qardaş, arxa sandığı,***
***Dünyanı pis günə qoyubdur insan.***
***Dostlar dönük çıxıb, qonşular yağı,***
***Peşmanam dünyaya doğulmağımdan.***

Poeziya üçün nadan və aqil, cənnət və cəhənnəm məfhumları mövcuddur, şair yaşayır və gözəl şeirlər yazırsa cənnətdən qovulmur, ona görə ki, hər misra-sında pak sevgi, təmiz Eşq var, yaxşı insanların əhatəsindədir. Şair Zamanın için-dədir, Zaman onun əməllərini yaşadır. Şair Tahir Rza poeziyasında bir aydınlıq, poetik intonasiya, dövrlə "ünsiyyət kodu" mövcuddur. Şair davranışını cəmiyyətin əksikliklərinə tabe etməmişdir, fikri və zövqü oxşayan ibrətamiz şeirlər qələmə al-mışdır. Hansı ki, onun şeir sənəti ölməzdir. Bunu dərk edən Tahir Rza qənaətini təsdiqləyir:

***Hərə öz ağlından "pay" verdi mənə***
***Nadanlar dərdi də çox gördü mənə.***
***Dövran ağrılardan tor hördü mənə,***
***Yaxşıdı, gözəldi, xoşdu dedilər.***

***Ürəyim titrədi, canım üzüldü,***
***Gözüm bu gözəli gördü süzüldü.***
***Misralar sinəmdən axdı, düzüldü***
***Taleyim də yolunu çaşdı dedilər.***

Şair nikbindir, ona görə ki, sənəti var, bu poetik sənət - şeir dünyası əbə-didir.

***Tahir, ötər illər, dəyişər zaman,***
***Ancaq unudulmaz sənətkar bir an.***
***Xoşbəxtdir xalq üçün yazıb - yaradan,***
***Sənət daimidir, öləsi deyil.***

Saf ilham daşıyıcısı Tahir Rzanın poeziyası mənim duyğularımı oyatdı, - desəm yanılmaram. O, poeziyası ilə emosionallığın, ifadəliyin və intellektliyin yerini dəqiqləşdirdi, həyatın çirkinliklərini "katarsisi"nə cəhd etdi. Axı, həyatın elə məqamları var - məhz incəsənət təmizləyir. Alman şairi Henrix Heyne təsadüfən yazmamış ki, həyatın incəsənətin köməkliyilə dəyişdirilməsi mümkündür. Bu isə poeziyanın sosiallaşması demək deyil, proqram çərçivəsinə salmaq deyil; bu isə Tahir Rzanın poeziyasının covhəridir ki, oxuculara çatdırmağı özümə borc bildim:

***Bir ömürdü, bir kəfəndi, bir də mən***
***Bir ürəkdi, ruhdu, təndi, bir də mən***

***Bir torpaqdı, bir vətəndi, bir də mən***
***Vətən üçün kəfənimi seçmişəm.***

***Ədalətin zəncirini qırmışıq,***
***Ədalətdən möhkəm qala qurmuşuq.***
***Düşünmüşük, danışmışıq - durmuşuq***
***Köməyimə yetənimi seçmişəm.***
***Saxta dosta, sirdaşlara daş atdıq,***
***Yatan bəxti silkələdik, oyatdıq.***
***Müstəqillik istəyinə biz çatdıq.***
***Öz kökümü, öz tənimi seçmişəm.***

***Azərbaycan müqəddəsdir, uludur***
***Tutduğu yol azadlığın yoludur.***
***Tahir haqqın, sədaqətin quludur,***
***Cənnət üçün Vətənimi seçmişəm.***

Yekun olaraq deməliyəm ki, poeziya bütün dünyəvi elmlərdən daha qədim-dir: filosof Aristotelin etirafıdır. Şeir mahiyyətində mövcud olmayan əxlaq qanun-larının sistemini təsəvvürə gətirir. İnsan davranışının stixasını qurur, gözəlliyi duy-maq məharətini aşılayır. Poeziya, bu poetik sənət gerçəkliyə varan metoddur, bu hissi şair şeir vasitəsilə həyata keçirir. Necə ki, Tahir Rza şeir dünyasına belə bir ölçüdə yanaşmış və özünü təsdiq etmişdir.

***Allahverdi Eminov***
***15.07.2025***